Ədəbiyyat qəzeti

# Can Yücəl



**Modern türk ədəbiyyatının ən böyük nümayəndələrindən biri - Can Yücəl 1926-cı ildə İstanbulda ziyalı ailəsində anadan olmuşdur. O, Atatürk liseyini bitirdikdən sonra təhsilini Ankara və Kembric universitetlərində davam etdirmiş, latın və yunan dillərini mükəmməl öyrənmişdir.**

**Can Yücəlin əmək fəaliyyəti son dərəcə rəngarəngdir. O, müxtəlif səfirliklərdə tərcüməçilik etmiş, eyni zamanda, Londonda BBC-nin türkcə bölümünün aparıcısı olmuşdur. Vətənə qayıtdıqdan sonra isə Bodrum və Marmarisdə turizm sahəsində çalışmışdır. Lakin zaman keçdikcə, ədəbiyyata daha çox meyl etmişdir.**

**Can Yücəl onlarla şeir kitabının müəllifidir. O, Uilyam Şekspirin, Federiko Qarsiya Lorkanın, Bertold Brext, Pol Elüarın, Mao-Tse-Dunun və Çe Gevaranın əsərlərini türk dilinə tərcümə etmişdir.**

## İNSANIN ANAYASASI

*Pol Elüara*

Qan yasasıdı bu, insanın:
Üzümdən şərab
əmələ gətirəcək,
Çaxmaq daşından od
Və öpücüklərdən insan!

Can yasasıdı bu, insanın:
Müharibələrə, yoxsulluqlara
Və min bir bəlaya qarşı
İllə də yaşayacaq,
yaşayacaq!

Ağıl yasasıdı bu, insanın:
Suyu şəfəqə döndərib,
Yuxunu həqiqətə döndərib,
Düşməni dost edəcək,
dost edəcək!

Anayasasıdı bu, insanın:
İmələməkdən başlayıb,
Kosmosda uçanadək
Durmadan,
durmadan
çalışacaq hər zaman!

## BAŞQA CÜR BİR ŞEY

Başqa cür bir şeydi
mənim istədiyim:
nə ağaca bənzər,
nə buluda.
Başqa cür bir yerdi
gedəcəyim məmləkət:
dənizi tamam başqa dəniz,
havası tamam başqa hava.

Hardadır, harda,
düşündüklərim,
Hardadır, harda,
gözlədiklərim -
o rəngi bambaşqa olanlar,
o dadı bambaşqa olanlar.

Rüzgara aşiq olub,
budağından qopan yarpağın
yolculuğundan gözəl nə ola bilər -
düşəcəyi yer
yamyaşıl çəməndisə,
yaşayacağı ömür
yaşadığından gözəldisə
və uzundusa...

# Ay işığındadır sevgilinə duyduğun həsrət

## HƏR ŞEY SƏNDƏ GİZLİ

Yerin səni çəkdiyi qədər ağırsan,
Qanadların çırpındığı qədər xəfif.
Qəlbinin döyüntüsü qədər canlı,
Gözlərinin
uzağı gördüyü qədər gəncsən.
Sevgin qədər xeyirxah,
Nifrətin qədər bədxahsan.
Nə rəngdə olur-olsun qaşın-gözün,
Qarşındakının gördüyüdür rəngin.

Gülə bildiyin qədər xoşbəxtsən,
Üzülmə,
bil ki, ağladığın qədər güləcəksən,
Düşünmə ki, bitdi hər şey,
Sevdiyin qədər seviləcəksən.

Ay işığındadır
sevgilinə duyduğun həsrət
Və sevgilinə
həsrət qaldığın qədər
ona yaxınsan.

Unutma,
yağışın yağdığı qədər islaq,
günəşin isitdiyi qədər istisən.
Özünü yalnız
hiss etdiyin qədər yalnız,
Özünü güclü
hiss etdiyin qədər güclüsən.

Və budur həyat!
Və budur yaşamaq!
Bunu xatırladığın qədər yaşayırsan,
Bunu unutduğun qədər üşüyürsən.
Çiçək sulandığı qədər gözəldir,
Quşlar
oxuya bildiyi qədər sevimlidir,
Çağa ağladığı qədər çağadır
Və hər şeyi
öyrəndiyin qədər bilirsən.
Bunu da öyrən:
Sevdiyin qədər sevilirsən...

## KİBRİT ÇÖPÜ

Dənizdə -
sahildən çox-çox uzaqda
ikiadamlıq tək qayıqda
martın iyirmi birinci günü
bir kibrit çöpü yandırdın -
badam çiçəklərinə baxmaq üçün.
Vallah, bir iş açacaqsan başımıza,
Yanıb kül olacağıq,
yoxsa bahar gələcək?
Bilmirəm...

## AĞILLI ASLANLAR

Romalılar
aslanlara atarmışlar
xristianları,
O xristianları ki,
romalılardan daha ədalətli,
daha mədəni
bir dövlətə
inanmaqdan savayı
günahları yox idi...

Romalılar
aslanlara atarmışlar
səni kimi, məni kimi,
Mehmet Uyar kimi insanları,
O Mehmet Uyar ki,
işsiz olmaqdan savayı
bir günahı yox idi...
O Mehmet Uyar ki,
işsiz-gücsüz,
pulsuz-parasız,
evsiz-eşiksiz
və aslanın qəfəsinə girdiyini
fərq etməyəcək qədər yuxusuz idi...
O Mehmet Uyar ki,
Liviyaya getmək üçün
növbə gözləyən
bir əsgər idi...
Amma aslanlar
özünü yesələr də,
dəymədilər, qardaşım, dəymədilər
Mehmet Uyarın
köksündəki
Silver Star nişanına!
Aslanlar ağıllanırlar - nədi?..

## ARXAMCA DANIŞMASINLAR DEYƏ

Hər Don Kixotun
bir yeldəyirmanı var,
Mənimki Heybəlidədi -
yarı uçuq-yarı sökük,
Qıpqırmızı pərlərinə
ağappaq hərflərlə
Türkiyə Xalq Bankası yazılıb.
Vallah-billah,
bir quruş da almadım
bu reklam üçün -
arxamca danışmasınlar deyə...

## GÖRÜŞMƏK ÜZƏRƏ

Deyək ki, yağışa düşmüsən,
Yağır, həm də necə!
Xəlbirdən süzülürmüş kimi,
mübarək-mübarək!
Və bir addım o yanda
günəş öz kefindədir.
Nə də olsa, yaz yağışıdı,
pırıl-pırıl düşür damlalar,
üzün-gözün islanır,
nazik, çit donun islanır...
Qaça-qaça özünü
üzbəüzdəki evin
eyvanına atırsan
və qarşında məni görürsən...

Deyək ki, bir səhər erkəndən
dənizə girmək keçdi könlündən,
Son əl-qol atdıqca
yastıq kimi ortasından

yırtılır su.
Egey dənizi -
dənizlərin ən əfəndisi -
səsini də çıxarmır.
Bir az da dərinə
enim deyirsən -
Dörd yanın çil-çil balıqlar,
saçaq-saçaq yosunlar,
Bax, onların arasında
məni görəcəksən ...

Deyək ki,
təpədən-dırnağa
şair birisi
ortaya çıxmış,
Gözləri çaxmaq-çaxmaq!
Meydan Taksimdi,
ya da Bəyazid...
Hər kəs ordadır,
Şair bizdən -
bu ölkənin çocuqlarından
danışır,
Deyir, yüyürək,
qardaşlarım, yüyürək,
özgürlüyə, mutluluğa doğru,
Hər işin başı sevgidi, deyir.
Gözlərin
yağışdan sonrakı
yarpaq yaşılı,
Bir də başını çevirirsən ki,
yanında mən varam...

## AY İŞIĞI

Göyərtdi biləklərimizi
Almaniyadan alınmış
təzə qandallar,
Avtobusumuz xarab oldu
Kamanı keçər-keçməz.
Səkkiz saatdı
karbonatlı bir çay
belə içməmişik.
Başımızın üstündə
kor-kobud bir çavuş
Niğdədən
Adana həbsxanasına gedirik...

Bir sən əskik idin, Ay işığı,
Bir sən əskik idin, gümüşü nisgil!

## DİBÇƏKDƏKİ GÜL

O bir güldü, saxsı dibçəkdə,
Havası - pəncərə ağzında,
Suyu - xidmətçilərin əlində...
Günlərin bir günü
açıq havanı gördü,
şapır-şapır yağışlı gördü...
Düşündü:
"Ey dad-bidad,
necə olub
indiyə qədər
ağzımın dadını bilməmişəm:
Pəncərə ağzı hara, çöl hara?
Əl suyu hara, yağış hara?"

## HƏRZƏ

Qayıqda
bir ilan
düşdü yanıma,
Üzmək bilməsəm də





atdım özümü dənizin qoynuna...
Necə olsa da,
dəniz dənizdi,
çalmaz məni...

## İKİMİZİN ARASINDA

Bir gün mən, şayət,
çərçivəsiz, şüşəsiz
pəncərəmdəki bezin
toz-torpaq olmuş
türküsünü çırparkən
ürəyimin önündən
gəlib keçəcəksən -
Yaşaracaq gözlərim,
Bir mənəm baxa-baxa qalan
keçib gedən son baharın arxasınca...

Bir gün, şayət,
ürəyinin önündən
gəlib keçəcəyəm.
Anladacağam necə, nə zaman
Bir ulu çinarın
budağında ilişib qaldı
quyruqlu ulduzumuz,
Göy üzündə -
gömgöy bir ləyənin içində
qızıl balıq kimi
çırpınır işığımız.
Sonra əyilib
qulağına deyəcəyəm:
gözlə,
gələcək uşaq vaxtı
uçurtduğum çərpələng!

## HƏSƏN CAN DEDİ Kİ...

Basmayın məni yatağa,
Yuxum-filan yox,
Görəcəyim işlər isə hələ çox...
Hər sözünüzə qarışacağam,
Televizoru söndürəcəyəm,
Günəbaxan şəkli çəkəcəyəm,
Çeçələ barmağıma
şeir oxuyacağam,
Fit çalacağam,
Kütahya
saxsısından düzəldilmiş
güldanınızı sındıracağam.
Vaxtsız
basmayın məni yatağa,
Yuxum-filan yox,
Görəcəyim işlər isə hələ çox...

## ÖNCƏ VƏ İLLA Kİ, SAĞLIQ OLSUN

Bir az əvvələ qur saatın zəngini,
Oyanar-oyanmaz
çıxma yerindən,
Pişik kimi gərnəş yatağının içində,
"Of, nə gözəl, yenə oyandım" -
deyə sevin.
Qar-yağış, tufan da olsa,
Pəncərəni aç,
nəfəs al dərindən,
tələsmə, arxayın-arxayın yu üzünü.
Yəqin, nə geyinəcəksənsə,
axşamdan seçmisən ki,
yuxudan oyananda vaxtın bol olsun...
Bir dilim çörək qızdır -
ətri bürüsün otağını,
Sonra bax, qardaşım,
qəhvəaltının ləzzətinə.
Ayaqqabıların
mütləq rənglənmiş olsun,
Gözünə gözəl görünsün
aynadakı əksin.
Evdən çıxarkən
ilk rast gəldiyin
adamın salamını ver,
üzünə gülümsə.
Sonra çıx get işinə:
dünəndən,
sırağagündən,
hətta ondan da
əvvəlki gündən
yarımçıq qalan
nə qədər işin varsa, tamamla.
Sonra
bir gözəl qəhvə
sifariş ver özünə,
Telefonda
səni xoşbəxt edəcək
səsi duymaq üçün
"Alo!" - de.
İşin olmasa da,
günortadan sonra eşiyə çıx -
Yağış varsa - islan,
Günəş varsa - isin,
Hava soyuqdursa - üşü...
Yeriyərkən sağa-sola bax,
elə yox, diqqətlə:
Çiçək görsən - iylə,
İt görsən - oxşa,
Çocuq görsən -
yanağından bir çimdik al...
Tək-tənha
qaldığın vaxtlarda
kimlər qapını döydü,
sevindirdi səni?
Çoxdandı
yada salmamısan,
aramamısan onları, deyilmi?
Bir ara, əhvallarını sor,
amma elə-belə yox,
bağrına basıb, qucaqlayırmış
kimi sor!
Bu, yalnız onların deyil,
Sənin də qəlbini xoş edəcək.
Günün gözəl keçdi, deyilmi?
Axşamın da gözəl olsun...
Yeməyin, dəxli yoxdu,
nə olur-olsun,
masanın üstünə
qumaş
süfrə sər.
Qonaq üçün
aldığın boşqabları,
fincanları çıxart,
Belə, borcun kimi yox,
kefinə kef qatar kimi.
Dadını çıxart axşamının
Sağında, solunda dostların...
Söhbət - məzən,
Qəhqəhən - meyin olsun...
Qardaşım, həyat bu. Daha nə olsun?
Amma öncə və illa ki, sağlıq olsun.



*Hazırladı:*
**DİLSUZ**